**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi**
**Publik Hüquqi Şəxsi**

**31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərində**
**bitən illər üzrə**
**Konsolidasiya edilmiş maliyyə hesabatları və**
**Müstəqil Auditorun Hesabatı**

**KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2025-Cİ İL VƏ 31 DEKABR 2024-CÜ İL TARİXLƏRİNDƏ BİTƏN İLLƏR ÜZRƏ**

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin və İdarənin strukturuna daxil olan qurumların (bundan sonra "Qrup") konsolidasiya edilmiş maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditor arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Konsolidasiya edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun Konsolidasiya edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

MHBS-yə uyğun Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və konsolidasiya edilmiş maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nin tələblərinə riayət olunması; və
- Əgər yaxın gələcəkdə, Qrupun normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə Konsolidasiya edilmiş maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Qrup daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Qrupun Konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və konsolidasiya olunmuş maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Qrupun fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunvericiliyə uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixində bitən il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun rəhbərliyi tərəfindən 25 may 2026-cı ildə təsdiq edilmişdir.

Rəhbərlik tərəfindən:

| | |
|---|---|
| **Rüfət Mahmud** | **Dinara Paşayeva** |
| İdarə Heyətinin sədri | Maliyyə və əməliyyatlar şöbəsinin müdiri |
| 25 iyun 2026-cı il | 25 iyun 2026-cı il |

RSM

RSM Azerbaijan

Demirchi Tower 5 th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan

T +994(12) 480 4571
F +994(12) 480 4563

www.rsm.az

**Müstəqil Auditorun Hesabatı**

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin Rəhbərliyinə və idarəetməyə məsul şəxslərə:

**Şərti Rəy**

Biz "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin (bundan sonra "Qrup") 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatının və həmin tarixdə başa çatmış illər üzrə konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatının, konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabatının və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatının, eləcə də əhəmiyyətli uçot prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizcə, "Şərti rəy üçün əsas" bölməsində təsvir edilən məsələnin mümkün təsirləri istisna olmaqla, əlaqədar konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə maliyyə vəziyyətini, həmin tarixlərdə başa çatmış illər üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq ədalətli təqdim edir.

**Şərti Rəyin bildirilməsi üçün əsas**

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda və konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabatda əks etdirilən, Qrupun kapital ehtiyatlarının tərkibinə daxil olan 151,277,161 AZN məbləğində yenidən qiymətləndirmə ehtiyatı əvvəlki dövrlərdə dövlət tərəfindən Qrupa köçürülmüş əmlak, tikili və avadanlıqların yenidən qiymətləndirilməsi nəticəsində yaranmışdır. Lakin biz həmin yenidən qiymətləndirməni təsdiq edən qiymətləndirmə hesabatını və ya digər müvafiq sənədləşməni əldə edə bilmədik. Sənədləşmənin olmaması səbəbindən biz alternativ audit prosedurları vasitəsilə də yenidən qiymətləndirmə ehtiyatının tanınması, ölçülməsi və təqdim edilməsinin uyğunluğuna dair kifayət qədər və müvafiq audit sübutu əldə edə bilmədik. Nəticədə, bu məsələnin konsolidasiya edilmiş maliyyə hesabatlarına hər hansı düzəliş tələb edib-etmədiyini müəyyənləşdirə bilmədik.

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Həmin standartlara əsasən bizim məsuliyyətimiz hesabatımızın "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində ətraflı təsvir edilmişdir. Biz Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (IESBA Məcəlləsi) və Azərbaycan Respublikasında konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə tətbiq olunan etik tələblərə əsasən Qrupdan müstəqil olmuşuq və etik öhdəliklərimizi həmin tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu şərti auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir

THE POWER OF BEING UNDERSTOOD
AUDIT | TAX | CONSULTING

RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

RSM

**Digər məsələ**

Qrupun 31 dekabr 2023-cü il tarixində bitən il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları digər audit təşkilatı tərəfindən audit olunmuş və 24 dekabr 2024-cü il tarixində konsolidasiya edilmiş maliyyə hesabatlarına dair müsbət rəy bildirilmişdir.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinin bir hissəsi olaraq, biz həmçinin 31 dekabr 2023-cü il tarixinə müqayisəli məlumatları əks etdirən və 20 saylı Qeyddə təsvir edilmiş düzəlişlərin auditini aparmışıq. Biz düzəlişlər istisna olmaqla (əgər varsa), Qrupun 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmamışıq, müvafiq olaraq bütövlükdə həmin konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy və ya hər hansı digər əminlik formasını təqdim etmirik.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik, MHBS-yə uyğun Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdim olunmasına cavabdehdir, o cümlədən fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Qrupu ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Qrupun öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Qrupun idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edirik və qiymətləndiririk, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edirik, rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti Konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və Konsolidasiya edilmiş maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və Qrupun biznes fəaliyyəti ilə bağlı kifayət qədər audit sübütlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

25 iyun 2026-cı il

Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

**"İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ**
**KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il | 01 yanvar 2024-cü il (yenidən təsnif edilmiş*) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər | 6 | 191,728,325 | 188,123,932 | 182,267,276 |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | 7 | 2,115,733 | 2,115,733 | 2,147,046 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **193,844,058** | **190,239,665** | **184,414,322** |
| **Qısamüddətli aktivlər** | | | | |
| Mal-material ehtiyatları | 8 | 448,339 | 612,082 | 566,697 |
| Ticarət və digər debitor borcları | 9 | 373,822 | 354,973 | 419,502 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 2,890,873 | 1,372,669 | 2,808,916 |
| Sair qısamüddətli aktivlər | 11 | 256,651 | 280,892 | 257,190 |
| **Cəmi qısamüddətli aktivlər** | | **3,969,685** | **2,620,616** | **4,052,305** |
| **Cəmi aktivlər** | | **197,813,743** | **192,860,281** | **188,466,627** |
| **Kapital və öhdəliklər** | | | | |
| **Kapital** | | | | |
| Nizamnamə kapitalı | | 1,000,000 | 1,000,000 | 1,000,000 |
| Kapital ehtiyatları | | 47,359,056 | 43,221,554 | 36,661,908 |
| Yenidən qiymətləndirmə üzrə ehtiyat | | 151,277,161 | 151,277,161 | 151,277,161 |
| Yığılmış zərər | | (2,377,434) | (3,681,818) | (2,489,123) |
| **Cəmi kapital** | | **197,258,783** | **191,816,897** | **186,449,946** |
| **Qısamüddətli öhdəliklər** | | | | |
| Ticarət və digər kreditor borcları | 12 | 36,653 | 12,119 | 281,015 |
| Sair qısamüddətli öhdəliklər | 13 | 259,146 | 424,921 | - |
| Təxirə salınmış gəlir | 14 | 259,161 | 606,344 | 1,735,666 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **554,960** | **1,043,384** | **2,016,681** |
| **Cəmi öhdəliklər** | | **554,960** | **1,043,384** | **2,016,681** |
| **Cəmi kapital və öhdəliklər** | | **197,813,743** | **192,860,281** | **188,466,627** |

*Burada göstərilmiş müəyyən məbləğlər 2023-cü il üzrə maliyyə hesabatlarına uyğun deyil və yenidən təqdim edilmiş və yenidən təsnifləşdirilmiş düzəlişləri əks etdirir, 20 saylı qeydə baxın.

**Rüfət Mahmud**
İdarə Heyətinin sədri

25 iyun 2026-cı il

**Dinara Paşayeva**
Maliyyə və əməliyyatlar şöbəsinin müdiri

25 iyun 2026-cı il

AZƏRBAYCAN RESPUBLİKASI İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ AZERBAIJAN REPUBLIC

8-26-cı səhifələrdə əlavə edilən qeydlər hazırkı ilkin konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

**“İÇƏRİŞƏHƏR” DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ**
**KONSOLİDASİYA EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 15 | 6,289,831 | 5,309,997 |
| Əsas əməliyyat xərci | 16 | (4,163,884) | (4,774,648) |
| **Əməliyyat mənfəəti** | | **2,125,947** | **535,349** |
| Subsidiya gəliri | 17 | 7,633,329 | 10,552,290 |
| Köhnəlmə və amortizasiya xərcləri | | (1,725,466) | (1,697,763) |
| İşçi heyəti üzrə xərclər | | (5,400,108) | (8,533,180) |
| Ümumi inzibati xərclər | 18 | (786,082) | (1,316,218) |
| Material xərcləri | | (247,645) | (227,309) |
| Digər əməliyyat xərcləri | | (1,126) | (50,772) |
| **Vergidən əvvəlki mənfəət/ (zərər)** | | **1,598,849** | **(737,603)** |
| Mənfəət vergisi | | (294,465) | (455,092) |
| **İl üzrə mənfəət/(zərər) və cəmi məcmu gəlir/(zərər)** | | **1,304,384** | **(1,192,695)** |

**Rüfət Mahmud**
İdarə Heyətinin sədri

25 iyun 2026-cı il

**Dinara Paşayeva**
Maliyyə və əməliyyatlar şöbəsinin müdiri

25 iyun 2026-cı il

AZƏRBAYCAN RESPUBLİKASI
İÇƏRİŞƏHƏR
DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ
AZERBAIJAN REPUBLIC

**"İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ**
**KONSOLİDASİYA EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Yenidən qiymətləndirmə üzrə ehtiyat | Kapital ehtiyatları | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **1,000,000** | **151,277,161** | **36,661,908** | **(2,489,123)** | **186,449,946** |
| İl üzrə zərər | - | - | - | (1,192,695) | **(1,192,695)** |
| Səhmdarın kapital qoyuluşu | - | - | 6,559,646 | - | **6,559,646** |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **1,000,000** | **151,277,161** | **43,221,554** | **(3,681,818)** | **191,816,897** |
| İl üzrə mənfəət | - | - | - | 1,304,384 | **1,304,384** |
| Səhmdarın kapital qoyuluşu | - | - | 4,137,502 | - | **4,137,502** |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **1,000,000** | **151,277,161** | **47,359,056** | **(2,377,434)** | **197,258,783** |

**Rüfət Mahmud**
İdarə Heyətinin sədri

25 iyun 2026-cı il

**Dinara Paşayeva**
Maliyyə və əməliyyatlar şöbəsinin müdiri

25 iyun 2026-cı il

**"İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ**
**KONSOLİDASİYA EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| **Vergidən əvvəlki mənfəət/ (zərər)** | | **1,598,849** | **(737,603)** |
| Köhnəlmə və amortizasiya xərcləri | 6 | 1,927,349 | 1,700,646 |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **3,526,198** | **963,043** |
| Sair qısamüddətli maliyyə aktivlərdə dəyişiklik | 11 | - | 171,482 |
| Mal-material ehtiyatlarında dəyişiklik | 8 | 163,742 | (45,382) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | 9 | (18,849) | 64,529 |
| Ticarət və digər kreditor borclarında dəyişiklik | 12 | 24,534 | (268,896) |
| Təxirə salınmış gəlir dəyişiklik | 14 | (347,183) | 606,344 |
| Sair qısamüddətli öhdəliklərində dəyişiklik | 13 | (165,774) | (1,310,754) |
| Ödənilmiş mənfəət vergisi | | (172,953) | (584,625) |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivlərində dəyişiklik | | (97,271) | (65,640) |
| **Əməliyyat fəaliyyətindən daxil olan/ (istifadə olunan) xalis pul vəsaitləri** | | **2,912,444** | **(469,899)** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak, tikili və avadanlıqlar alınması | 6 | (5,490,442) | (7,410,751) |
| Qeyri-maddi aktivlərin alınması | 6 | (41,300) | (175,054) |
| Əmlak, tikili və avadanlıqların satışından daxilolmalar | 6 | - | 28,503 |
| Kapital qoyuluşları üzrə daxilolmalar | | 4,137,502 | 6,590,956 |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(1,394,240)** | **(966,346)** |
| **Pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri üzrə xalis artım/ (azalma)** | | **1,518,204** | **(1,436,245)** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə** | | **1,372,669** | **2,808,916** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna** | | **2,890,873** | **1,372,669** |

**Rüfət Mahmud**
İdarə Heyətinin sədri

25 iyun 2026-cı il

AZƏRBAYCAN RESPUBLİKASI
İÇƏRİŞƏHƏR
DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ
AZERBAIJAN REPUBLIC

**Dinara Paşayeva**
Maliyyə və əməliyyatlar şöbəsinin müdiri

25 iyun 2026-cı il

8-26-cı səhifələrdə əlavə edilən qeydlər hazırkı ilkin konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.